# 2024-cü ildə Azərbaycan Animasiya Assosiasiyasının fəaliyyəti və önəmli hadisələr haqqında

# HESABAT

anima

Azərbaycan Animasiya Assosiasiyası

**2024-cü ildə Azərbaycan Animasiya Assosiasiyasının fəaliyyəti və önəmli hadisələr haqqında**

# HESABAT

## GİRİŞ SÖZÜ

Hesabat iki hissədən ibarətdir. Birinci hissədə 2024-cü ildə Azərbaycan animasiyasına aid bəzi statistik məlumatlar qeyd olunub. İkinci hissədə 2024-cü ildə Azərbaycan Animasiya Assosiasiyasının fəaliyyəti və önəmli hadisələr təsvir edilib.

## BİRİNCİ HİSSƏ. AZƏRBAYCAN ANİMASİYASINA AİD BƏZİ STATİSTİK MƏLUMATLAR

2024-cü ildə assosiasiyaya 20 üzv qoşulub (19 fiziki şəxs, 1 şirkət), ümumi üzvlərin sayı 43-ə çatıb (40 fiziki şəxs və 3 şirkət). Assosiasiya tərəfindən təşkil olunan ən böyük layihə **7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı** idi.

2024-cü ildə Mədəniyyət Nazirliyi və ARKA-nın maliyyə dəstəyi ilə bir qısametrajlı animasiya filmi (**"Narqız"**, rej. Məsud Pənahi) və qısametrajlı sənədli-animasiya filmi (**"Kapitan və Xəzər dənizi"**, rej. Türkan Hüseyn) çəkilib, **"Nağıl istəyirəm!"** (rej. Firəngiz Qurbanova) adlı qısametrajlı animasiya filminə isə maliyyə dəstəyinin göstərilməsi haqqında qərar verilib.

2024-cü ildə Bakıda keçirilən 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalında 12 yeni Azərbaycan animasiya filmi müsabiqə proqramında yarışıb: **"İnanna"** (rej. Rüstəm Bəşirov), **"Zamanın arxasınca"** (rej. Ayla Qasımova, Si Yi Lee), **"Oğuzdan olan adam: Hökm"** (rej. Murad Əliyev), **"Öyrənmək"** (rej. Aslan Məhərrəmli), **"Mənim universitetim"** (rej. Şahid İsmayılov),**"Həddindən artıq düşünmək"** (rej. Zəhraxanım Quluzadə), **"Sona"** (rej. Kövsər Qurban), **"Yaşıl"** (rej. İnci Qurban), **"Abbasın hekayəsi"** (rej. Ayaz Xalıqov), **"Həyatıma baxış"** (rej. Cəmilə Əhmədova), **"Saprim"** (rej. Nərmin Quliyeva), **"Saqqız"** (rej. Orxan Babalı). Qeyd etmək lazımdır ki, bütün bu filmlər həvəskar və tələbə filmləridir. Festivalın müsabiqədənkənar proqramında "**Sevginin Gücü: 7-ci ANİMAFİLM-in Treyleri"** (rej. Nərgiz Mahmudova, Nəzrin Ağamalıyeva) qısa animasiya filmi, **"Dostlar"** animasiya serialı (rej. Seyla Əliyeva), **"Nağd osun"** animasiya serialı layihəsi (rej. Rəvan Muradov), **"Manat"** animasiya layihəsi (rej. Anar Səlimov), **"Narqız"** filminin treyleri (rej. Məsud Pənahi), **"Səma qızı"** filminin layihəsi (rej. Mehriban Əliyeva) təqdim olunub.

Azərbaycan Respublikası Audiovizual Şurası aparatının Audiovizual proqramların monitorinqi və təhlili şöbəsi tərəfindən 2024-cü il ərzində ümumölkə yerüstü televiziya kanallarında yayımlanmış proqramların məzmun-janr **statistikası hazırlanmışdır**. Məzmun bölgüsündə ən az paya malik olan proqramlar uşaq proqramları və cizgi filmləri (1,2%), sosial çarxlar (1,1%) olub.

2024-cü ildə **"Hədis"** (rej. Nəzrin Ağamalıyeva) qısametrajlı animasiya filmi 12 beynəlxalq festivalda iştirak etmişdir, onların üçü OSKAR kvalifikasiyalı festivallardır (Kaboom, OFF, CINANIMA). Ümumi götürsək, "Hədis" animasiya filmi 2023-2024-cü illərdə 45 festivalda iştirak edib, 9 mukafat qazanmışdır.

2024-cü ildə Azərbaycan animasiyası YouTube platformasında böyüməyə davam edib. **“KooklaTV”** kanalına 14 yeni video yüklənilib, kanalın ümumi baxış sayı 90 000 000-a çatmışdır. **“Azkinder Azerbaijan”** kanalına 5 yeni video yüklənib, kanalın ümumi baxış sayı 16 000 000-a çatmışdır. **“Düldül Media”** kanalı fəaliyyətə başlayıb, kanalda **"Adil və Hudhud"** (rej. Simran Ağayev) animasiya serialı yayımlanır, serialın 4 bölümü kanala yüklənib, kananın ümumi baxış sayı 500 000-ə çatmışdır. **“Ulduzlu yol”** kanalı fəaliyyətə başlayıb, 322 video yüklənib, kanalın ümumi baxış sayı 900 000-ə çatmışdır.

## İKİNCİ HİSSƏ. AZƏRBAYCAN ANİMASİYA ASSOSİASİYASININ FƏALİYYƏTİ VƏ ÖNƏMLİ HADİSƏLƏR

**4 yanvar:** Tanınmış animasiya rejissoru və rəssamı Vahid Talıbov vəfat edib.

**18-22 yanvar:** “Hədis” qısametrajlı animasiya filmi Fransanın 14-cü PIAFF, Paris Beynəlxalq Animasiya Film Festivalının (PIAFF, Paris International Animation Film Festival) “Tamaşaçı mükafatı”nı (“Audience Award”) qazanıb. Festival 2024-ci ilin 18-22 yanvar tarixlərində Parisdə keçirilib.

**15-18 fevral:** Rejissor Ayan Novruzun “Empty Spaces” (“Boş yerlər”) adlı animasiya filmi “BFI Future Film Festival 2024” festivalında iştirak edib və “British Film Institute“un rəsmi YouTube kanalına yerləşdirilib.

**15 mart:** Rejissor Məsud Pənahinin “Narqız” qısametrajlı animasiya filmi və rejissor Türkan Hüseynin “Kapitan və Xəzər dənizi” qısametrajlı sənədli animasiya filmi istehsalata buraxılıb. Filmlər Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) maliyyə dəstəyi alıblar.

**9 aprel:** Azərbaycan Animasiya Assosiasiyası yaranmasının ikinci ilini qeyd edib.

**9 aprel:** “Təhsil haqqı” (rej. Ruslan İbrahimli) animasiya filmi İngiltərənin Brighton əyalətinin Latest TV (first for culture) televiziya kanalının həyata keçirdiyi “REAL International Micro Video Competition“ film festivalının "Innovation" kateqoriyasına seçilib. Beləliklə, film 2024-cü ilin 22-29 aprel tarixlərində keçilən festivalda nümayiş etdirilən zaman Latest TV-də canlı yayımlanmışdı.

**10 aprel:** Azərbaycan Animasiya Assosiasiyasının üzvü, tərcüməçi, redaktor öz işinə daim yaradıcı yanaşan, yüksək peşəkarlıq nümayiş etdirən Rafiq Məmmədli 10 aprel 2024-cü ildə vəfat edib.

**17 aprel:** Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) və Azərbaycan Prodüserlər Gildiyasının təşkilatçılığı ilə baş tutan “Prodüserlərin inkişaf təlimi” proqramı çərçivəsində prodüser və rejissorların öz film layihələrini təqdim etməsi üçün pitçinq keçirilib. Təlimdə Azərbaycan Animasiya Assosiasiyasının üzvləri – Şahin Əliyev (“Dar vaxtda” layihəsi), Rəşid Ağamalıyev və Nəzrin Ağamalıyeva (“Qeyri-adi qorxu” layihəsi) iştirak ediblər.

**22 aprel:** “Qara buludlar” (rej. Ruslan İbrahimli) qısametrajlı animasiya filmi Türkiyənin İzmir şəhərində 2-3 may tarixlərində keçirilən Ege Universitetinin Beynəlxalq Turan Film Festivalına seçilib. "Qara buludlar" animasiya filmi festivalın finala çıxmış filmləri arasında yer alıb.

**3 may:** Uluslararası Turan Film Festivali tərəfindən seçilən “Qara buludlar” qısametrajlı animasiya filminə görə Ruslan İbrahimli "Genç Yetenek (Kızıl Elma)" rejissor mükafatını qazanıb.

**25 aprel:** İçərişəhərdə “Divan Saatı” layihəsi çərçivəsində Azərbaycanın tanınmış animasiya rejissoru, Əməkdar mədəniyyət işçisi, Azərbaycan Animasiya Assosiasiyasının həmtəsisçisi, əslən içərişəhərli Elçin Hami Axundov ilə “Azərbaycan animasiyasının inkişaf mərhələləri” mövzusunda görüş keçirilib.

**3 may:** Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən “Yaradıcı” Tədris və İnkubasiya Mərkəzinin təşkilatçılığı və Azərbaycan Animasiya Assosiasiyasının dəstəyilə “Animatorların İnkişaf Proqramına” (Animator’s Accelerator) start verilib.

**1-29 may:** Mədəniyyət Nazirliyinin “Yaradıcı müzakirələr” layihəsi çərçivəsində Quba, Gəncə, Mingəçevir və Şəki şəhərlərində animasiya sənətinə aid bir sıra mühazirələr oxunub. Layihə çərçivəsində Assosiasiyanın sədri Rəşid Ağamalıyev “Animasiya sənəti və biznesi” mövzusunda və Assosiasiyanın üzvü Şahin Əliyev “Virtual oyun biznesi” mövzusunda mühazirələr oxuyublar. Layihədə həmçinin Assosiasiyanın üzvü Mehriban Əliyeva iştirak edib. May ayı ərzində təşkil olunan maarifləndirici sessiyalara ümumilikdə 3000 nəfərdən artıq iştirakçı qoşulub.

**16-17 may:** Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi və Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə 16-17 may tarixlərində Lənkəran şəhər Mədəniyyət Mərkəzində “ANİMAFİLM Lənkəranda” festivalı keçirilib. Regionlarda animasiya kinosu və sənayesinin inkişafının təşviqi məqsədi ilə keçirilən tədbir “ANİMAFİLM festivalı regionlarda” layihəsi çərçivəsində baş tutub. İki gün ərzində festivala 900-dən çox uşaqlar, yeniyetmələr və böyüklər qoşularaq 29 filmi izləyiblər və səsvermədə iştirak ediblər. “ANİMAFİLM Lənkəranda” festivalı çərçivəsində “Anidoc” adlı sənədli animasiya vörkşopu da keçirilib. Vörkşopu rejissorlar Nəzrin Ağamalıyeva və Elçin Hami Axundov aparıblar. İki gün ərzində 10 nəfər vörkşop iştirakçılarına sənədli animasiya filmləri layihələrini necə işləyib hazırlanması, təqdim (pitching) və istehsal olunması öyrədilib.

**24-25 may:** Azərbaycan Animasiya Assosiasiyası “FORCE OF LOVE” festivalında stendlə təmsil olunub. Festival NARGIS Magazine və YARADICI tərəfindən təşkil olunub.

**31 may:** 34 nömrəli uşaq musiqi məktəbində 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü və “Pıspısa xanım və Siçan bəy” (“Tıq-Tıq xanım”) filminin 50 illik yubileyinə həsr olunmuş konsert baş tutub. Tədbirdə Azərbaycan Animasiya Assosiasiyasının həmtəsisçiləri Elçin Hami Axundov və Rəşid Ağamalıyev iştirak ediblər.

**1-2 iyun:** Azərbaycan Animasiya Assosiasiyası və Türk Animasiya Assosiasiyası (ATA) Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən “GameSummit 2024” oyun festivalında birgə stendlə iştirak edib. 1-2 iyun tarixlərində Bakıda, Crystal Hall-da keçirilən “GameSummit 2024” “Rəqəmsal Yaradıcı Həftə” layihəsinin tərkib hissəsidir və oyun texnologiyaları sahəsində ən son yeniliklərin nümayiş olunduğu bir platformadır.

**3-4 iyun:** Özbəkistan Rəqəmsal Texnologiyalar Nazirliyinin dəstəyi ilə Daşkənd şəhərində "Tashkent Game & Animation Fest 2024" Beynəlxalq Festivalı keçirilib. Strateji əhəmiyyət daşıyan tədbirin məqsədi Özbəkistanda innovativ, kreativ iqtisadiyyatı inkişaf etdirmək, gənc nəsli yerli və beynəlxalq səviyyədə oyun və animasiya sənayesi sahəsində fəaliyyətə cəlb etməkdir. Festivalda Azərbaycan Animasiya Assosiasiyasının üzvləri Rəşid Ağamalıyev, Nəzrin Ağamalıyeva, Oktai İusibov, Assosiasiyanın üzvü olan "Dynamic Box" şirkətinin həmtəsisçisi Yaqub Mehdiyev iştirak ediblər.

**9-15 iyun:** Ansi şəhərində (Fransa) Annecy Beynəlxalq Animasiya Filmləri Festivalı keçirilib. Dünyanın ən böyük animasiya festivalında 17000-dən çox tamaşaçı və qonaq iştirak edib. Ölkəmizi Annecy Festivalında Azərbaycan Animasiya Assosiasiyasının üzvləri – Elçin Hami Axundov, Nəzrin Ağamalıyeva ("ANİMAFİLM Studio"), Oqtay Yusibov (Alove Animation Studio), Rəşid Ağamalıyev (ANİMAFİLM Studio) və Şahin Əliyev (Dynamic Box) təmsil ediblər. Festivalın MIFA marketində Türk Animasiya Assosiasiyası (ATA) və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) müştərək stendlə təmsil olunub. Stenddə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyənin animasiya məhsulları, layihələri, assosiasiyaları və festivalları təqdim olunub. Annecy festivalında, həmçinin, animasiya rejissoru Rəvan Muradov ("Crambone Inventive League") da iştirak edib. Onun festivalda iştirakı 6-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalının "The Half – "Birdən ölsək" filmi ilə "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi" mükafatını qazanması sayəsində mümkün olub. Mükafatın sponsorları Annecy Festivalı, Fransa Respublikasının Azərbaycandakı Səfirliyi və Fransız İnstitutudur.

**24 iyun:** "Təhsil haqqı" (rej. Ruslan İbrahimli) qısametrajlı animasiya filmi Yaponiyanın "Future Vision Festival - A celebration of Unusual Animation" adlı film festivalı tərəfindən seçilib. Qeyd edək ki, festival Yaponiya və Hollandiyada nümayişlər və sərgilər təşkil edir və Amsterdamda "SALTO1 TV" kanalında yayımlanır. Festival 01.12.2024-cü il - 01.03.2025-ci il tarixlərində Tokionun Suginami rayonunda keçirilib.

**25 iyun:** 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalına filmlərin qəbulu başlanıb.

**9 iyul:** Azərbaycan Animasiya Assosiasiyasının üzvü Mehriban Əliyevanın "Səma Qızı" filmi Almaniya və Fransa səfirliklərinin təşkil etdiyi "Gender Equality Award" (Gender bərabərliyi mükafatının) finalçısı olub.

**20 iyul:** Tanınmuş animasiya rejissoru Gennadi Tişşenko vəfat edib.

**26-28 iyul:** Qazaxıstanın Almatı şəhərində 2-ci Almatı Animasiya Festivalı (Almaty Animation Festival) keçirilib. Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev və Assosiasiyanın üzvü Nəzrin Ağamalıyeva festivalda iştirak ediblər. Festival çərçivəsində 2023-cü ildə Almatı Animasiya Festivalının "Ən yaxşı vizual həll" mükafatı alan "Hədis" animasiya filminin müəllifi Nəzrin Ağamalıyeva ustad dərsi keçib. Ustad dərsindən sonra "Hədis" animasiya filmi yenidən nümayiş olunub. İyulun 28-də, festivalın bağlanış mərasimində beynəlxalq münasiflər heyətinin sədri Rəşid Ağamalıyev və münsiflər heyətinin üzvləri Anna Popova, Chyngiz Asanaliev və Almaz Kosobaev qalibləri elan ediblər.

**1 avqust:** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il 01 avqust tarixli "Azərbaycan kino işçilərinin təltif edilməsi haqqında" Sərəncamı ilə təltif edilən kino işçilərinin sırasında Azərbaycan animasiya sənətinin inkişafına böyük töhfələr verən animasiya rəssamı Gülşən Quliyeva "Tərəqqi" medalına və Firəngiz Qurbanova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb.

**2 avqust:** 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı müsabiqə proqramını elan edib.

**12 avqust:** ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı "Qısametrajlı Britaniya animasiya filmi" kateqoriyasında "BAFTA Festivallar Siyahısına" daxil edilib. Britaniya Kino və Televiziya Sənətləri Akademiyası (BAFTA) əməkdaşlıq etdiyi festivalların siyahısını ciddi seçim proseduruna uyğun tərtib edir, bu isə ANİMAFİLM-in BAFTA tərəfindən müəyyən edilmiş yüksək standartlara cavab verdiyinin göstəricisidir.

**29 Avqust:** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təhsildə inkişaf və innovasiyalar üzrə VIII qrant müsabiqəsində Aytac Əliyevanın "Pixar in a Box: Azərbaycan məktəblərində animasiya kursunun tətbiqi" adlı layihəsi qalib gəlib. Kursun müəllimi Aytac Əliyeva, təlimçi Ruslan İbrahimli və mentoru Lamiyə Qasımovadır. Kurs oktyabrın 5-də başlayacaq.

**29 avqust:** "Emile Awards" nominasiyaları və nominantları açıqlayıb. 2017-ci ildən başlayaraq təqdim olunan "Emil Mükafatları" Avropa animasiya sənətini və onu yaradan müstəqil animasiya ustalarından animasiya studiyalarına qədər istedadlı insanları dəyərləndirir. "Emil Mükafatları" Təşkilat Komitəsinin üzvlərdən biri Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyevdir.

**8 sentyabr:** Azərbaycan Animasiya Assosiasiyası Mərkəzi və Şərqi Avropada animasiya sənayesinin inkişafı və təbliği istiqamətində çalışan, aparıcı Avropa platforması olan "CEE Animation" Platformasına Müşahidəçi üzv seçilib.

**11 sentyabr:** 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı proqramı elan edib.

**29 sentyabr:** 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalının "Sevginin gücü" adlanan rəsmi treyleri təqdim olunub. Rejissorlar: Nərgiz Mahmudova və Nəzrin Ağamalıyevadır. Treyler ANİMAFİLM Studio, ToonDook Studio və Dynamic Box Studio tərəfindən hazırlanıb.

**2-6 oktyabr:** Bakıda 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı keçirilib. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Kino Agentliyi və "YARADICI"nın (Mədəni və Yaradıcı Sənayelərin İnkişaf Mərkəzi) təşkilati dəstəyi, "Ağıllı Nağıllar" reklam agentliyinin sponsorluğu, Azərbaycan Animasiya Assosiasiyasının və "PERİ FİLM" MMC-nin təşkilatçılığı ilə keçirilən festival Baku Cinema Breeze (BCB) Festivalı çərçivəsində reallaşıb. Əsas mövzusu "SEVGİ" olan Beynəlxalq Festivalda 1000-dən çox tamaşaçı 26 ölkədən 100-dən çox filmi izləyib. Festival 3 əsas proqramdan – Müsabiqə, Müsabiqədənkənar və Peşəkarlar üçün proqramlardan ibarət idi. Festivalın proqramı nəfis şəkildə tərtib olinmuş kataloqda öz əksini tapıb. Seçim komissiyasının qərarı ilə müsabiqə proqramına 18 ölkədən 48 film seçilib. Onlardan 12 film yerli, 36 film isə beynəlxalq kateqoriyalarda yarışıb. Filmlər həm beynəlxalq münsiflər heyəti, həm də tamaşaçılar tərəfindən qiymətləndirilib və qaliblər 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalının təntənəli bağlanış mərasimində zərifliyi ilə seçilən "SEVGİ"

mükafatı ilə təltif olunublar. Bağlanış mərasimi zamanı həmçinin 7-ci ANİMAFİLM Festivalının, “Narqız” animasiya filminin treylerləri, Ayan Novruz və Dante Rustav tərəfindən keçirilən animasiya vörkşopları nəticəsində çəkilmiş iki tələbə animasiya filmi nümayiş olunub. Qeyd edək ki, 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı bu il Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin təşkilatçılığı ilə 2-8 oktyabr tarixlərində ölkəmizdə ilk dəfə keçirilən “Baku Cinema Breeze” (BCB) Beynəlxalq Film Festivalı çərçivəsində baş tutub. BCB Festivalı həmçinin kino sənayesindəki imkanlarını nümayiş etdirən, Heydər Əliyev Mərkəzində keçirilən Omarket (Şərq ölkələrinin kino bazarı) təşkil edib və Azərbaycan Animasiya Assosiasiyası burda öz stendi vasitəsilə üzvlərinin audiovizual məhsullarını nümayiş etdirib. 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalının tərəfdaşları: Çexiya Respublikasının Azərbaycandakı səfirliyi, Fransanın Azərbaycandakı səfirliyi, Azərbaycandakı Fransız İnstitutu, Annecy Beynəlxalq Animasiya Film Festivalı, “CITIA”, “Fétiche”, “Dynamic Box”, “KYNO”, “The Manat”, “Tripsome”, proqram tərəfdaşları: TURKSOY, Türk Animasiya Assosiasiyası (ATA), MIFASI, Animation Development Fund (ADF), ANIMAFILM Studio, FilmFreeway, “Azərbaycanfilm” kinostudiyası, Azərbaycan Dövlət Film Fondu, Lakeside Animation Studio, Sakura Ceramic, Maurfilm, Filmes do Gajo, CINANIMA International Animated Film Festival of Espinho, Sardinha Em Lata, Ciclope, Portuguese Short Film Agency, BAP Animation Studio, Cola Animation, ANIMASYROS International Animation Festival, YUVA, media tərəfdaşları isə “Skwigly”, “KYNO”, “CityLife”, “Huzoor” platformaları idi.

**2-3 oktyabr:** Bakıda Animasiya dünyasında mühüm mərhələ olan Birinci Türk Dünyası Animasiyası Beynəlxalq Festivalı (ATA Festival) uğurla keçirilib. Festival Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA), “YARADICI”nın (Mədəni və Yaradıcı Sənayelərin İnkişaf Mərkəzi) dəstəyi və Türk Animasiya Assosiasiyasının (ATA) və TÜRKSOY-un təşkilatçılığı ilə ərsəyə gəlib. Festival bütün türkdilli ölkələrdən yaradıcı istedadları və sahənin peşəkarlarını birləşdirib. Festivalın bir neçə tədbiri 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı ilə birlikdə hazırlanıb. ATA Festivalında Azərbaycan Animasiya Assosiasiyasının üzvləri də iştirak ediblər. Heydər Əliyev Mərkəzində baş tutan festivalın açılış mərasiminə Türk animasiyasına mühüm töhfələrə görə xüsusi mükafatların təqdimatı da daxil idi. Mükafatçılardan biri, Azərbaycan Animasiya Assosiasiyasının həmtəsisçi Elçin Axundov və üzvü Məsud Pənahi idi.

**28 oktyabr:** Azərbaycan Animasiya Assosiasiyası Beynəlxalq Animasiya Gününü YUVA qalereyasında qeyd edib.

**8 noyabr:** “Tarix” qısametrajlı animasiya filmi bu il 8 Noyabr – Zəfər Günündə “KinoBiz” YouTube kanalı vasitəsilə yayımlanıb. Bu barədə Azərbaycan Animasiya Assosiasiyanın üzvü, filmin prodüseri Orxan Əliyev məlumat verib.

**15 noyabr:** “Hədis” qısametrajlı animasiya filmi noyabrın 15-də Portuqaliyanın “CINANIMA” Beynəlxalq Animasiya Filmləri Festivalının (CINANIMA – International Animated Film Festival of Espinho, Portugal) müsabiqədənkənar proqramında nümayiş olunub. “Oskar” kvalifikasiyalı festival 8-17 noyabr tarixlərində 48-ci dəfə Portuqaliyanın Espinho şəhərində keçirilib.

**2-5 dekabr:** Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşa şəhərində “Yaradıcılıq Marafonu” keçirilib. Marafon çərçivəsində digər klasterlərlə yanaşı, animasiya təlimi də keçirilib.

Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyevin mentorloğu ilə 11 nəfər iştirakçı 3 animasiya layihəsi hazırlayıblar. Layihələri digər münsiflərlə birlikdə Azərbaycan Animasiya Assosiasiyasının həmtəsisisçi Elçin Hami Axundov da dəyərləndirirdi. "Balaca Simurq" layihəsi qalib seçilib. Marafon Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu (ICYF) və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birgə həyata keçirdiyi "Şuşa – İslam Əməkdaşlıq Təşkilatının Gənclər Paytaxtı 2024" Beynəlxalq Proqramı çərçivəsində baş tutub.

**14 dekabr:** Azərbaycan Animasiya Asosiasiyası və ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı "Bizimkilər" festivalında stendlə təmsil olunub.

**17 dekabr:** Azərbaycanın tanınmış animasiya rejissoru Məsud Pənahinin "Narqız" qısametrajlı animasiya filminin istehsalı tamamlanıb. "Narqız" filmi Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) maliyyə dəstəyi ilə "PERİ FİLM" MMC (ANİMAFİLM Studio) tərəfindən istehsal olunub. Filmin treyleri tamaşaçıların diqqətinə təqdim olunub. Filmin məzmunu: İşğaldan azad olunmuş Qarabağ torpağında həyat yenidən çiçəklənir. Balaca Narqız göyə çərpələng uçurur və dünyada hər şeyi unudaraq onun dalınca qaçır. Sevinc içərisində olan qız torpaq altında olan və öz saatını gözləyən təhlükənin fərqində deyil. Bu minadır. "NARQIZ" qısametrajlı animasiya filmi ilk növbədə uşaqlar üçün nəzərdə tutulub. Filmin əsas məqsədi uşaqların diqqətini mina təhlükəsinə cəlb etmək, eləcə də işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə işləri haqqında məlumatları dünya ictimaiyyətinə çatdırmaqdır. Maarifləndirici səciyyə daşıyan film insanlar üçün dinc dövrdə ən böyük təhlükə olan minalar, onlardan qorunmaq, ehtiyatlı davranmaq qaydalarını və təcrübələrini paylaşmağın vacibliyini vurğulayır. Bütün bunlar audiovizual vasitələr, milli mədəni irsimizin inciləri, təsviri tamaşaçıya daha aydın çatdıran musiqi və qrafika vasitəsilə təqdim olunmaqla, XXI əsrin müasir və gerçək vaqeəsini nəql edir. Filmin quruluşçu rejissoru Məsud Pənahi, prodüseri Rəşid Ağamalıyev, ideya müəllifi Bəhruz Pənahi, ssenari müəllifləri Məsud Pənahi, İsmayıl İman, bəstəkar Azər Hacıəsgərli, səs rejissoru Nadir Mahmudov, aparıcı animatoru Firəngiz Bağırova, kompozitinq rəssamı Emil Şiran, storyboard rəssamı Kübra Binnətova, animatik rəssamı Rüstəm Bəşirov, rəssam Elçin Hami Axundov, səsləndirmə rejissoru Qurban Məsimov, redaktorlar Rafiq Məmmədli, Gülşən Hüseynovadır. Xatırladaq ki, "Narqız" qısametrajlı animasiya filmi Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) tərəfindən 2023-cü ilin iyulun 18-də elan edilən film layihələri müsabiqəsinin qalibi olub və istehsalına dəstək göstərilməsi təsdiq edilib. Qeyd edək ki, "Narqız" layihəsinin kraudfandiq kampaniyası 2023-cü ilin iyul ayında uğurla başa çatıb (layihənin adı "Nərgiz" idi).

**22 dekabr:** "Adil və Hudhud" animasiya serialı işıq üzü görüb. Animasiya filminin ideya müəllifi İlqar Əliyev, baş prodüser Əli Yunisoğlu, ssenari müəllifi İlkin Mustafayev, rejissor Simran Ağayev, səs rejissoru Nadir Mahmudov, bəstəkar Azər Hacıəsgərli, 3D modelləməçi Kamran İgidəliyev, 3D animator Toğrul Məmmədov və Rüfət İsmayılov, 3D personaj riggeri və render Simran Ağayev, rəssam Şəfa Əliyevadır, psixoloq Əsmər Məhərrəmovadır. Səsləndirmədə iştirak edənlər: Fatimə Zeynalova (ana), Aybəniz Ağazadə (Hudhud), Rabiyə Yusifova (Fatimə), Məhəmmədhüseyn Əliyev (Adil), Həsən Haşımlı (Əli), Rüqəyyə Mehdiyeva (mətnin səsləndirilməsi).

**27 dekabr:** Dekabrın 27-də Bakı Fotoqrafiya Evinin təşkilatçılığı, Azərbaycan Animasiya Assosiasiyasının dəstəyi ilə "Sehrli nağıllar" sərgisi təşkil olunub. Sərgidə Azərbaycan

animasiya tarixinə aid olan orijinal eskizlər, storyboard-lar, rəsmlər nümayiş olunur, həmçinin 2024-cü ildə “ANİMAFİLM Studio” tərəfindən və Azərbaycan Respublikasının Kino Agentliyinin (ARKA) maliyyə dəstəyi ilə istehsal olunan “Narqız” animasiya filminə aid rəsm əsərləri tamaşaçılara təqdim olunub. Sərginin açılışında Azərbaycan Animasiya Assosiasiyanın sədri Rəşid Ağamalıyev, Assosiasiyanın İdarə Heyətinin üzvü Elçin Hami Axundov və Assosiasiyasının üzvləri Şahin Əliyev və Aydan Kazımova iştirak ediblər.

**29 dekabr:** Rejissor Ruslan Ibrahimlinin müxtəlif festivallara seçilmiş animasiya filmləri ("Qara buludlar", "Təhsil haqqı") türk dilinə tərcümə olunaraq dublaj edilib və rejissorun YouTube kanalında yayımlanır.

**Azərbaycan Animasiya Assosiasiyası**

**Bakı, 30.03.2025-ci il**